**Artur Konan Doyl**

# ŞERLOK HOLMSUN MACƏRALARI

## Qorxu vadisi

Tərcüməçi:
Samir Bulut

qanun nəşriyyatı

Arthur Conan Doyle

# THE ADVENTURES OF SHERLOCK HOLMES

## The Valley Of Fear

Birinci hissədə Şerlok Holms professor Moriartinin əlaltısı Porlokdan şifrəli məktub alır. Məktubda mister Duqlas adlı birinə sui-qəsd hazırlanması barədə xəbər verilir. Bir qədər sonra Şerlok Holmsun Beyker-stritdəki evinə mister Duqlasın öz malikanəsində qətlə yetirilməsi xəbəri gəlir. Şerlok Holms təhqiqata başlayır. Məlum olur ki, qətlə yetirilən mister Duqlas deyil, onu öldürmək istəyəndir.

İkinci hissədə xəfiyyə Berdi Edvards, Makmerdo adı ilə Vermiss şəhərciyinə gəlir. O, "Təmizləyicilər"in dəstəsinə daxil olmaq istəyir və bacarır. Maraqlı, həyəcanlı hadisələr silsiləsi də elə bundan sonra başlayır...

## MÜNDƏRİCAT

### Birinci hissə
### BİRLSTOUNDA FACİƏ


1. Xəbərdarlıq ............................................................8
2. Şerlok Holms və Makdonald ..................................18
3. Birlstoun faciəsi ....................................................28
4. Qaranlıq ...............................................................37
5. Faciənin şahidləri ..................................................49
6. İşartılar ..................................................................61
7. Məsələnin cavabı ...................................................76


### İkinci hissə
### TƏMİZLƏYİCİLƏR


1. Baş iştirakçı ..........................................................96
2. Vermissa lojasının rəhbəri ...................................106
3. Üç yüz qırx birinci loja ........................................125
4. "Qorxu vadisi" .....................................................143
5. Zülmət ..................................................................155
6. Təhlükə .................................................................167
7. Bardi Edvards tələdə ............................................178

Epiloq .......................................................................188

## Birinci hissə

# BİRLSTOUNDA FACİƏ

## 1. Xəbərdarlıq

– Fikirləşirəm ki...

– Fikirləşin, fikirləşin, – Holms səbirsizcə deyindi.

Mən çox səbirli insan olduğuma əminəm, amma istehza ilə deyilmiş bu sözlər mənə bərk toxundu.

– Qulaq asın, Holms, – narazı halda dedim, – siz bəzən mənim səbrimi həddindən artıq sınağa çəkirsiniz.

Lakin o, dərin düşüncələrə daldığından cavab vermədi və poçtla göndərilmiş zərfin içindən çıxardığı məktubu diqqətlə gözdən keçirməyə başladı. Sonra zərfi götürüb onu da eyni diqqətlə yoxladı.

– Bu, Porlokun xəttidir, – fikirli halda dedi. – Heç şübhəm yoxdur, bu Porlokun xəttidir, hərçənd indiyə qədər bunu yalnız iki dəfə görmüşəm. İqrekin yuxarısı qəribə şəkildədir, çox xarakterik forması var. Amma bu məktubu Porlok göndəribsə, deməli, çox mühüm xəbər var, ona görə də yubanmadan onu oxumaq lazımdır.

O mənə müraciət etməkdən daha çox özü ilə danışırdı, amma dərhal bütün hirsim soyudu.

– Porlok kimdir?

– Porlok yalnız ləqəbdir, Vatson, amma onun arxasında çox hiyləgər və zirək bir şəxs dayanıb. Bundan əvvəlki məktubda Porlok adının uydurma olduğunu yazıb onu axtarmamağımı istəmişdi. Amma Porlok hansısa görkəmli bir şəxslə əlaqə saxladığı üçün əhəmiyyətlidir, yoxsa özünə görə deyil. Köpəkbalığının yanı ilə üzən bir losman-balıq, ya aslanın dalınca qaçan bir çaqqal, ya da həqiqətən qorxunc bir adamın yanında dolaşan zavallı birini təsəvvür edin. Yalnız qorxunc deyil, Vatson, həm də çox müəmmalı bir adam. Bax, buna görə Porlok məni maraqlandırır. Moriartinin peşəsi haqqında sizə dəfələrlə danışmışam, eləmi?

– Alim və cinayətkar, hiyləgər planlar qurmaqda o qədər ustadır ki...

– Ona məğlub olmağım indi də yadımdan çıxmır...

– Demək istəyirdim ki, cəmiyyət onu bu tərəfdən qətiyyən tanımır.

– Bu, açıq eyhamdır! – Holms ucadan dedi. – Acı yumor damarınız var, Vatson! Sizdən çəkinmək lazımdır. Amma Moriartini cinayətkar adlandırmaqla özünüz qanunu pozdunuz. Təəccüblü deyil ki, qanuna görə bu iftiradır. Ən qorxulu canilərdən biri, az qala bütün cinayətlərin təşkilatçısı – əslində bu adam belədir. Amma şübhələrdən o qədər uzaq, o qədər

toxunulmaz, əlçatmaz bir adamdır ki, bu əsassız ittihama görə sizi məhkəməyə verə bilər. Ali riyaziyyatın ən çətin məsələlərinə toxunan "Asteroidlərin hərəkəti" adlı kitabın məşhur müəllifi məgər o deyilmi? Deyirlər ki, bu kitabı tənqid etməyə heç kimin cürəti çatmayıb. Belə insana cəza çəkmədən iftira atmaq olarmı? O dahidir, Vatson! Amma bir gün bizim də qapımızda şənlik olacaq!

– Çox istəyirəm ki, bunu görmək mənə də qismət olsun! – ucadan dedim. – Amma siz Porlok haqqında danışırdınız...

– Hə, hə... Deməli, Porlok adlı şəxs – bu qeyri-adi insan tərəfindən yaradılmış uzun zəncirin yalnız bir halqasıdır. Həm də ikinci dərəcəli halqadır. Üstəlik, zədələnmiş halqadır. Bax, bu səbəbdən Porlok bizim üçün son dərəcə əhəmiyyətlidir. Bir az vicdan əzabı çəkdiyi üçün, ən başlıcası isə ona göndərdiyim on funtluq çekə görə, o artıq iki dəfə mənə qiymətli məlumatlar ötürüb. Elə qiymətli ki, onların sayəsində cinayətin qarşısını almaq mümkün olub. Əgər şifrin açarını tapa bilsək, şübhə etmirəm ki, bu məktub da elə məlumatlardan biri olacaq.

Holms məktubu açıb masanın üstünə qoydu. Əyilib müəmmalı məktuba diqqətlə baxmağa başladım. Kağız vərəqdə aşağıdakılar yazılmışdı:

**534 S2 13 127 36 31 4 17 21 45**

**Duqlas 109 293 5 37 Birlstoun.**

**26 Birlstoun 9 18 171**